*Fərid HÜSEYN*

# Xalqla həmfikir Nizami



♦ *Esse*

Nizami Gəncəvinin Azərbaycan şairi olmasını göstərən kəsərli, əsaslı sübutlardan, dəlillərdən biri də onun əsərlərinin el – folklor variantlarıdır. Dediklərimi iki sual ətrafında şərh etmək istərdim:

1. Nizami Gəncəvi Azərbaycan şairi olmasaydı, Azərbaycan xalqı onun əsərlərinin bu qədər folklor variantını – nağıl, dastan – yaradardımı?

2. Nizami Gəncəvi özünü Azərbaycan şairi hesab etməsəydi, folklorumuzdan bunca bəhrələnərdimi?

Deyə bilərlər ki, Avropa ədibləri yunan-roma ədəbiyyatından kifayət qədər bəhrələniblər, onda həmin qələm adamlarını yunan-roma yazıçılarımı hesab edək? Bu suala cavabım belədir: Avropa müəllifləri yunan-roma ədəbiyyatından, antik mətnlərin daha çox süjet və hekayətlərindən, yaxud obraz qalereyasından qidalanıblar, milli düşüncə sistemlərini isə, aid olduqları xalqın düşüncələrinə əsasən qələmə alıblar. Nizami Gəncəvi isə, Azərbaycan folklorundan məhz türk – Azərbaycan milli düşüncə sistemini əsas götürərək yararlanıb, yəni o, xalq düşüncəsindəki millilik prinsiplərini əsərlərinə gətirib, süjetləri isə ya orijinal təfəkkürü vasitəsilə yaradıb, yaxud da onu türk düşüncəsinə, əxlaqına uyğunlaşdıraraq sözə çevirib. Nizami qatda dünyəvi və müsəlman olduğu qədər də, türk və azərbaycanlıdır.

Konkret misallara keçək:

1. Nizami Gəncəvinin əsərlərinin el variantlarına fikir versək, görərik ki, xalqımız zaman-zaman daha çox İskəndər obrazına müraciət edib, onun haqqında çoxsaylı nağıllar, dastanlar yaradıb. “İskəndər və qarğa”, “İskəndər və loğman”, “İskəndərin zulmata getməsi”, “İskəndər Əsgər Ləl Fiftən” və sair dediklərimə misaldır. Xalqımız Nizami Gəncəvinin ən parlaq, ən mürəkkəb qəhrəmanına daha çox müraciət edib, əksini düşünsək, Nizami Gəncəvi xalqın ən çox müraciət etdiyi tarixi və nağıl qəhrəmanını əsas obrazına çevirib. Bu məqam Nizami Gəncəvi ilə Azərbaycan xalqının harmonik düşünməsindən xəbər verir, nağılların, dastanların hansının N.Gəncəvidən əvvəl, hansının ondan sonra yaradılmasından asılı olmayaraq, bu qarşılıqlı düşüncə paralellərinə diqqət çəkmək lazımdır.

## *“Sirlər xəzinəsi”*

Nizami Gəncəvinin “Sirlər xəzinəsi” əsərində “Kərpickəsən qocanın hekayəti” adlı hissədə gənc qocaya deyir ki, sənin kərpic kəsən yaşın deyil, qoca isə cavabında söyləyir ki, kiməsə əl açmaq ayıbdır, nəinki kərpic kəsmək. Bu məlum ibrətamiz məsələ “Öz əlinin zəhməti ilə yaşa” adlı nağılımızda da var. Həmin nağılda padşah oğluna deyir ki, mən qocalmışam, gəl mənim yerimə şahlıq et, oğul razılaşmır və sarayı tərk edir. Uzun sınaqlardan sonra saraya üzüağ qayıdır. Və onda padşah oğluna bir sirr açır: “Mən o təklifi sənə qəsdən elədim ki, gedib özünə çörək axtarasan, çünki özü qazanmayıb ata malına göz dikənlər axırda bədbəxt olur”.

Burdan aydın görünür ki, Nizami Gəncəvinin düşüncəsi ilə Azərbaycan xalq düşüncəsi oxşar, hətta eynidir. Bu bənzərliyi təsadüfi saymaq, yaxud ibrətamiz əsərlərdəki eyniyyət kimi qiymətləndirmək ona görə olmaz ki, hər iki nümunədə insanın gəldiyi nəticə onun keçdiyi yolun mahiyyəti kimi qiymətləndirilir. Hər gəncin öz yaşayışı onun sınağıtək dəyər qazanır. Gərək hər kəs öz həyatı vasitəsi ilə sınağa çəkilə ki, keçdiyi həyat yolu onun aldığı unudulmaz dərs olsun.

## *“Xosrov və Şirin”*

Nizami Gəncəvinin “Xosrov və Şirin” əsərinin mahiyyəti – yəni eşqin ölməzliyi, insanın aqibətinin ona təslimiyyət qiyafətində təqdimi, sevginin Adəm övladının həyat missiyasına çevrilməsi eynən “Fərhad və Şirin” dastanında da əsas götürülür. Dastanda Firdovsi, Nizami, Füzuli və Cami kimi şairlərin adlarının çəkilməsi göstərir ki, həmin folklor nümunəsi uzaq əsrlərə aid deyil. Ancaq dastanın “Ustadnamə”sinə baxanda bir məqam diqqət çəkir, Nizami “Xosrov və Şirin”də hansı ideyaları qoyursa, həmin ideyalar “Ustadnamə”də açılır. Buradan da aydın görünür ki, xalq Nizaminin fikir düzümündən çıxmır, onun ideya həlqəsinə oxşar həlqə əlavə edir. “Ustadnamə”dən bu parçaya diqqət edək:

***Öylə görüm gəlib keçib***
***Neçə insan, dünya, səndən?***
***Ölüm şərbətini içib***
***Qoca, cavan, dünya, səndən.***

***Sən olandan bəri bünyad,***
***Gəlib keçdi neçə ustad.***
***Neçə aşıq, Şirin, Fərhad***
***Getdi giryan, dünya, səndən.***

Bu dastandakı ustadnamə eynən “Xosrovun məqbərəsində Şirinin özünü öldürməsi” səhnəsi ilə uyğundur. Nizami əsərin bu yerində insan və dünya ziddiyyətini açır:

***Dünyaya güvənmə, bu sərt nakişi***
***Heç vəfa eyləməz, düzəltməz işi,***

***Hər nə vermişdisə əvvəl insana,***
***Geri alar bir-bir, alçaq zamana.***
***Sənə yüz dəfəyə can versə bir gün,***
***Bir dəfəyə alar, aparar bütün.***
***Mürəkkəb tilsimsən ayaq üstə sən,***
***Yıxılıb sınınca artıq bir heçsən,***
***Bu çənbər altında yaşayarkən biz,***
***Göstər hansı boyun qalmış kəməndsiz.***
***Nə uçmaq mümkündür üstündə çənbər,***
***Nə onun bəndini aça bilərlər.***
***Bizlər bu çənbərdən necə qurtaraq,***
***Heç kəs açmamışdır, açılmaz bu dağ.***
***Qorxulu torpaqdır yaxşısı budur,***
***Torpağın zülmündən torpağa otur.***[1]

Fərhad və Şirin obrazı birə-bir Nizami Gəncəvinin “Xosrov və Şirin”indəki kimidir: Şirin məğrur, ağıllı, sadiq, Fərhad dönməz, şücaətli və ədalətli. Sonda hər iki aşiq ölür, amma bir-birinin dərdindən dünyadan köçürlər. Yəni eşq səbəbkar missiyasını yerinə yetirir, həm Nizaminin əsərində, həm də dastanda. Qəhrəmanlar eşqlə – səbəb ilə nəticəyə – aqibətə çatırlar.

## *“Leyli və Məcnun”*

Bildiyimiz kimi, Şərqdə Məcnun obrazı ilə bağlı çoxsaylı rəvayətlər var və onun yaşı, doğulduğu yer və əbədiyyətə qovuşduğu tarixi ilə bağlı müxtəlif fikirlər mövcuddur. “Şərqdə 9 Məcnun” mövzusu, əslində, bu müxtəlifliklərin ümumiləşdirilməsidir. Amma Azərbaycan xalqı hər nə qədər ərəb əfsanələrinə, yaxud “Xəmsə” ənənələrini davam etdirən “Leyli və Məcnun” müəlliflərinin əsərlərinə bələd olsa da, eyni adlı dastanda – folklor nümunəsində Nizami Gəncəvinin süjetinə sadiqlik aşkar duyulur. Bu amil sübut edir ki, Nizami Gəncəvi süjetlərinin Azərbaycan folkloruna təsirinin miqyası bütün əhatəsi ilə görünsün. Təsəvvür edin, orta əsrlərdir, insanlar çoxsaylı əfsanələr danışır, xəmsənəvisilərin “Leyli və Məcnu”ları əl-əl gəzir, amma xalq düşüncəsi məhz Nizami Gəncəvinin əsərindəki süjeti əsas götürür, əlbəttə, tarixi gedişat dastandakı obrazlar qalereyasına, süjetə təsir edib, amma adı çəkilən Azərbaycan dastanında ümumi xətt – mahiyyət dəyişmir, məzmuna ciddi müdaxilələrə ehtiyac duyulmur. Məsələn, dastanda Leyli və anasının məşhur dialoqu, Məcnunun doğuluşu, Zeydin məlum mübarizəsi və sair məqamlar xüsusi qabardılır, Nizami Gəncəvinin vurğuladığı məqamlar xalq tərəfindən də göz önünə gətirilir.

## *“Yeddi gözəl”*

Bəhram Gur obrazı yeddi gözəlin əhvalatını dinləyir və dünyanın faniliyini, gedişatını, mahiyyətini anlayır. Burada dünyanın yeddi iqlimi cahanın hər üzü kimi xarakterizə edilir. “Şahzadə Bəhram” dastanında isə,

[1] – *Tərcümə Rəsul Rzanındır.*

Bəhram yeddi gözəli sevir. Yeddi gözəli sevmək, yeddi taleyi sevmək dünyaya məhəbbət duymaq, yeddi insanı tanımaq, dünyanı tanımaq deməkdir. Yeddi gözəli dinləyən Bəhram Gur, əslində, insanlığın mahiyyətini anlayır. Yeddi qıza aşiq olmaq mümkündürmü? Xeyr. Nə düzgündür, nə mümkün. Bəs xalq nə üçün belə bir obrazı – Şahzadə Bəhramı yaradıb. Çünki necə ki Nizaminin Bəhram yeddi gözəl vasitəsi ilə bütün insanlığı anlamağa çalışırsa, eynən yeddi gözəli sevən Bəhram da məhəbbətin mahiyyətini, insanlığı anlayır. Sanki qəhrəman yeddi insandan yeddi yol ayrıcı kimi keçir, ancaq bütün yollar sonda əsas yola – son yola, –aqibətə gətirib çıxarır. Diqqət etdinizsə, Nizami əsərlərində nəyə vurğu vurursa, xalq da həmin məqamları yaratdığı nümunələrdə daha çox qabardır.

Bildiyiniz kimi, "Yeddi gözəl" əsərinin qəhrəmanı Bəhram şah əsər boyu çoxsaylı təsirli səhnələrdə iştirak edir. Ancaq o səhnələrdən ən məşhuru Bəhram şahın çoban ilə söhbətidir. Öz itini cəzalandıran çobandan Bəhram şah bunun səbəbini soruşanda, çoban cavab verir ki, it ona tapşırılan işə xəyanət edib. Bu hadisə başı əyləncələrə qarışan Bəhram şahı qəflət yuxusundan ayıldır:

***Dedi ki, bu işə olmuşam heyran,***
***Şahlığı öyrətdi mənə bir çoban.***[2]

Azərbaycan dastanı "Şahzadə Bəhram"da da çoxsaylı hadisələr cərəyan edir, ancaq onların əksəri ənənəvi süjetdən fərqlidir. "Yeddi gözəl" məsnəvisində həqiqətə qovuşmağa xidmət edən çoban "Şahzadə çoban" nağılında aşiqə yarını tapması üçün yol göstərir, gedəcəyi yeri nişan verir. Məsnəvidə də, dastanda da çoban doğru yolu göstərən adam kimi xarakterizə olunur. Ən vacib məqam isə odur ki, xalq "Yeddi gözəl"dəki ən maraqlı obrazlardan birinə müraciət edib. Deməli, şaha yol göstərən çoban obrazı həm Nizami Gəncəvi yaradıcılığı, həm də xalq təfəkkürümüz üçün vacib qəhrəmandır. Əgər belə olmasaydı, nə Nizami çoxsaylı obrazlar içərisində belə bir qəhrəmana ehtiyac duyar, nə də dastanımızda o qədər obraz arasından məhz çobanın ibrətamiz obrazına izləyici işıq salınardı.

## *"İskəndərnamə"*

N.Gəncəvi "İskəndərnamə"də İskəndərin çoxlu üstün cəhətlərini göstərir, ancaq bir məqamı – səbirsizliyi onun nöqsanı kimi nəzərə çarpdırır. İskəndər dirilik suyunu tapmaq üçün tez həvəs göstərir, suyu tapmayanda səbirsizlik göstərib geri qayıdır. Yaxud İskəndərlə Nüşabənin görüşündə İskəndər yenə səbirsizlik edir və qarşı tərəfdən dərsini alır. Misalların sayını artırmaq da olar. Yəni İskəndərin naqis cəhəti onun səbirsizliyi, dotələbliyidir. Bildiyiniz kimi, folklor reallıqdan çox, arzuları ifadə edir, ona görə də xalq sanki İskəndəri islah etmək – onun naqis cəhətini göstərməmək üçün onun səbirli olmasını mifləşdirir. "İskəndərin balıqlardan xərac alması" adlı nağılda İskəndər dəryalar padşahından xərac istəyir və imtina cavabı alır, belə olan təqdirdə, o, əmr edir ki, əsgərlər dəryadan suyu qablarda daşıyaraq boşaltsın və nəticədə dəryadakılar üzə çıxsın və cəng başlasın.

[2] – *Tərcümə Süleyman Rüstəmindir.*

Dəryaların hakimi əyanlarından birindən soruşur ki, gedin baxın, görün dəryanın suyunu yavaş-yavaş boşaldırlar, yoxsa sürətlə? Cavab gəlir ki, qoşun dəryanı səbirlə boşaldır. Bu xəbəri eşidən dərya sultanı təslim olur. Çünki ordu dənizi tez boşaltsa, yorular, gec boşaltsa isə, iş-işdən keçmiş olardı. Dəniz hökmdarı fikirləşir ki, səbrlə boşaldırlarsa, deməli, istədiklərini əldə edəcəklər. Xalq düşüncəsi onu göstərir ki, səbrlə hər müşkülü asan etmək mümkündür. Sanki Nizaminin səbirsizliklə sınağa çəkdiyi İskəndəri xalq düşüncəsi səbrlə mükafatlandırır. Bu məqam qətiyyən xalq yaradıcılığı ilə Nizami əsərləri arasındakı fikir ayrılığı deyil, bu, ziddiyyətlərin qoşuşması, çuğlaşmasıdır.

Nizami Gəncəvi yaradıcılığına xas əlamətlərdən biri də situativ qəhrəmanlar yaratmasıdır. Yəni qəhrəmanın kimliyi məhz düşdüyü vəziyyətdə açılır, belədə həmin yaşanmış hadisədən əvvəl biz obrazın nə edəcəyini bilmir, onu dərindən tanımırıq. Bununla da oxucuya sübut olunur ki, insan həm də mühitin, zamanın, daha dolğun desək, düşdüyü vəziyyətin qəhrəmanıdır. Məsələn, Xosrov Şirini sevəndən sonra dəyişir, amma onun fədakar bir qəhrəmana çevrildiyi məqam məhz ölüm ayağında susuzluqdan bağrı yanarkən Şirini yuxudan oyatmaması ilə, yəni düşdüyü vəziyyətdə özünü necə aparması nəticəsində üzə çıxır. Yaxud Fitnə cəsarətlidir, ancaq şah ceyranın ayağını başına ox vuraraq tikəndə, cəsarət tapıb onun şücaətini vərdiş kimi qiymətləndirir. Yəni düşdüyü vəziyyət, situasiya onun kimliyini barizləşdirir. Xalq Nizaminin situativ qəhrəmanlarını da öz yaddaşına köçürüb, yaxud da Nizami xalq təfəkküründəki oxşar məqamdan uğurla yararlanıb. Məsələn, "İskəndərin anası" adlı nağılda deyilir ki, İskəndər şah vəfat edəndən sonra anası onun meyitinin dəfn olunmasına icazə vermir, söyləyir ki, bu cür övladı torpağa tapşıra bilməz, onun cənazəsi ayaqaltı ola bilməz. Onu nə qədər yola gətirməyə çalışsalar da, qadın razılaşmır, sonda şahın əyanları məsləhət görürlər ki, meyiti bir otağa qoyaq, sən də ona keşik çəkəsən, ancaq bir şərtlə ki, gərək dilinə heç nə vurmayasan, yemək yeməyəsən. Yarası, övlad dağı isti olan ana qoyulan şərtə asanlıqla razılaşır. Üç gün keçir və İskəndərin anası acır, sağa-sola baxsa da, yeməyə heç nə tapmır, başını qaldırıb görür ki, tavandan çörək asılıb. O, ha çalışsa da çörəyə əli çatmır, belə olan halda qadın stolun üstündəki meyitin üstünə çıxıb tavandan asılan çörəyi götürür. İskəndərin pusquda duran əyanları bu zaman içəri girib deyirlər: "Sən oğlunun basdırılmasına razı olmurdun ki, onun qəbrinin üstünə ayaq basıb keçərlər. Ancaq indi özün onun cənazəsinin üstünə çıxıb, bir parça çörək üçün onu ayaqlayırdın". Bu hadisədən sonra ana peşman olur və oğlunun dəfn edilməsinə icazə verir. Buradan da aydın olur ki, ana üç gün öncə ac qalmağa razı idi, çünki onda yarası daha isti idi, indi isə düşüncəsi, istər-istəməz, dəyişib. Bu, xalq təfəkkürünün ifadəsi olan münasibətdir. Nizaminin İskəndəri də belədir, o, dirilik suyunu tapmayıb qayıdır və bir daha əbədiyyət sevdasına düşməyəcəyinə söz verir, ancaq iştirak etdiyi bir məclisdə qoca dirilik diyarının mövcudluğundan söz açır və İskəndər də fikrini dəyişib yenə dirilik suyu axtarışına çıxır. Göründüyü kimi, Nizaminin də İskəndəri – insanı düşdüyü vəziyyətə uyğun xarakterizə edir.